*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, Filologiya məsələləri № 10, 2024*
*Səh.237-242*
*ISSN 2224-9257*

https://doi.org/10.62837/2024.10.237

**SEVINC ƏLƏSGƏROVA**
Bakı Avrasiya Universiteti, magistr
elesgerovasevinc21@gmail.com

# M.ŞƏHRİYARIN "HEYDƏRBABAYA SALAM" POEMASINDA TOPONİMLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Məhəmmədhüseyn Şəhriyarın ən məhşur əsərlərindən olan "Heydərbabaya salam" poeması Azərbaycan ədəbiyyatında xüsusi yer tutur. Poema bütövlükdə sadə, məlahətli, gözəl, nəcib bir Azərbaycan dilində yazılmış və Şəhriyarın özü etiraf edir ki, onu fars dilinə tərcümə etmək çox çətindir. Bu poemada müxtəlif mənşəli toponimlərdən istifadə edilmişdir. Şəhriyarın istifadə etdiyi toponimlər təkcə linqvistik baxımdan deyil, eyni zamanda sosial-iqtisadi həyatın bir çox maraqlı cəhətlərini tərənnüm və təsvir etməyə xidmət edir. İqtisadi, siyasi cəhətdən önəmli olan əraziləri öz poemasında xüsusi qeyd etməklə şair bəzən hadisələrin baş verdiyi məkanı mikrotoponimlərin köməyi ilə oxucusuna çatdırır. "Heydərbabaya salam" poemasında da ayrı-ayrı real və qeyri-real (uydurma) bədii toponimlərdən istifadə edən sənətkar bədii prosesin cərəyan etdiyi coğrafi məkan haqqında təsəvvür yaratmış olur.

Məqalədə "Heydərbabaya salam" poemasındakı toponimlər linqvistik, etimoloji, üslubi cəhətdən araşdırılmış, onların zəngin informativ, ekspressiv və üslubi funksiyaları və poetik imkanları üzə çıxarılmışdır. Belə ki, Məhəmmədhüseyn Şəhriyarın adı çəkilən poemasında işlənmiş həqiqi, yəni bədii fantaziyanın məhsulu olmayıb, tarixən olmuş və ya hazırda mövcud olan konkret coğrafi obyekti, inzibati-ərazi vahidini ifadə edən toponimlər də geniş yayılmışdır.

***Açar sözlər*:** toponimlər, linqvistik xüsusiyyətlər, oronimlər, oykonimlər, doğma torpaq.

## Giriş

Dilçilik şöbələri arasında özünəməxsus yeri olan onomologiyanın əsas istiqamətlərindən birini də toponimlərin tədqiqi təşkil edir. Toponimlər hər bir xalqın mədəniyyəti, tarixi, coğrafiyası haqqında bilgiləri özündə əks etdirməklə yanaşı, dil xüsusiyyətləri ilə də seçilir. Tarixin süzgəcindən keçirilərək bu günümüzə qədər gəlmiş toponimlər dilin ən qədim qatlarını özündə əks etdirir. Bu yer-yurd adları qeydə alındıqları ərazilərdə məskunlaşmış xalqın bilavasitə milli kimliyinin və mənsubluğunun göstəricisidir. Toponimlərin araşdırılması hər zaman aktual mövzu olmuş və onların yaranma tarixini müəyyənləşdirmək həm də dilin formalaşma tarixini dəqiqləşdirmək deməkdir. Bu anlamda Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poeması istər bədii cəhətdən, istərsə də dil-üslub xüsusiyyətləri baxımından əvəzsizdir. Azərbaycan onomalogiya məktəbinin banisi

A.Qurbanov bu barədə haqlı olaraq belə qeyd edir: "*Toponimlərdə tarixin izləri qalır. Buna görə də bu tarixi izləri axtarmaq ən vacib məsələdir. Toponimlərin xarakter cəhətlərinə uyğun olaraq müxtəlif terminlər işlədilir. Məsələn, makrotoponim, mikrotoponim. Makrotoponimlərə ölkə, vilayət, rayon, şəhər, qəsəbə, kənd adları, mikrotoponimlərə məhəllə, küçə, dərə, təpə, kalafalıq, uçurum, mağara və s. adları daxildir"*[8, 38]. Müəllif fikrini daha da dəqiqləşdirmək üçün qeyd edir ki, "*dilimizdəki toponimik vahidlər əks etdirdiyi obyektin görünüşü və xüsusiyyətinə görə iki yerə bölünür:*

*1) Oronimlər - relyef quruluşu, formalarının (dağ, təpə, dərə, aşırım) adını bildirən onomastik vahidlər: məsələn: Bozdağ, Şahdağ....*

*2) Oykonimlər - yaşayış məntəqələrinin adını bildirən toponimik vahidlər: məsələn: Sumqayıt, Ağdam...."* [9, 296].

M.Şəhriyarın doğma yurduna, ana dilinə böyük sevgi və şövqlə qələmə aldığı, anadilli poeziyasının zirvəsinə çevrilən "Heydərbabaya salam" poeması onomastik vahidlərin zənginliyi baxımından böyük əhəmiyyətə malikdir.

**Əsas hissə**

M.Şəhriyarın "Heydərbabaya salam" poemasında şairin müraciət etdiyi həqiqi, yaxud gerçək toponimlər, əsas etibarilə, müəllifin yaşayıb-yaratdığı coğrafi regionla bağlıdır. Müəllif bu toponimlərin adını çəkməklə həm öz milli mənsubiyyətini, həm də dolayısı ilə tarixi türk torpaqlarının hazırkı vəziyyətini gələcək nəsillərə çatdırmaq missiyasını layiqincə yerinə yetirmişdir. Eyni zamanda, sənətkar həmin yerlərlə bağlı şəxsi xatirələrini və duyğularını da ifadə etmişdir. Poemadakı əsas toponimlərə nəzər salaq:

**Heydərbaba** – poema sona qədər bu oronimə müraciətlə yazılmışdır. Heydərbaba dağı İran ərazisində Təbriz yaxınlığında Qaraçəmən yolu ilə Şəngülava kəndləri arasında yerləşir. Bu dağla üzbəüz Qayışqurşaq kəndi yerləşir. Xoşginab və Güllücə kəndləri Heydərbaba dağının ətəyində yerləşir. Həmçinin burada Heydərbaba kəndi də vardır ki, adını bu dağdan almışdır. Bu toponim şairin keçmişə qayıdışıdır. Poemadan bir parçaya nəzər salaq:

***Heydərbaba**, ildırımlar şaxanda,*
*Sellər, sular şaqqıldayıb axanda,*
*Qızlar ona səf bağlıyıb baxanda,*
*Mənim də bir adım gəlsin dilüzə* [10, 3].

Şair bu dağ vasitəsilə vətənə, təbiətə və keçmişə olan sevgi və ehtiramını ifadə edir. Şəhriyar üçün bu dağ həm uşaqlıq xatirələri, həm də doğma yurdunu simvolizə edir.

**Xoşginab** – Fars mənşəli xronimdir. Təbriz yaxınlığında, Şəhriyarın uşaqlıq xatirələrinin keçdiyi bir məkandır. Poemada Heydərbaba dağı və onun ətrafındakı kəndlər, o cümlədən Xoşginab təsvir olunarkən, insanlarını sadə və səmimi bir dildə ifadə etmişdir. Xoşginab şairin doğma el-obası kimi xatırlanır.

*...**Xoşginabın** abrusu, ərdəmi,*
*Məscidlərin, məclislərin görkəmi* [10, 12].

**Kaşan** – İranın İsfahan ostanında (vilayətində) yerləşir və tarixi əhəmiyyətlidir. Şəhərin adı ilə bağlı çoxlu rəvayət vardır. Bunlardan birinə görə şəhər qədim padşahlardan birinin oğlu olan "Qasan"ın adını daşıyır. Digər bir rəvayətə görə, Harun ər-Rəşidin arvadı Zübeydə xatun burada "Kahi-Əfşani" adlı bir saray tikdirmişdir. Zamanla bu ad Kaşana çevrilmişdir [8, 208]. Həmin örnəyə diqqət edək:

*...Mən hardasam, Tehranda, ya **Kaşanda,***
*Uzaqlardan gözüm seçər onları,*
*Xəyal gəlib, aşıb keçər onları* [10, 14].

Nümunədən göründüyü kimi, Kaşan oykonimdir. Şəhriyarın əsərlərində, xüsusilə də bu poemasında Tehran, Təbriz, Kaşan kimi yer adları uşaqlıq xatirələri, doğma diyara olan bağlılıq kimi mövzularla əlaqələndirilir.

**Kərbəla** – Ərəb mənşəli oykonimdir. İraqda şiələrin ziyarətgahlarından birinin adıdır.

*Heydərbaba, **Qaraçəmən cadası,***
*Çovuşların gələr səsi, sədası,*
***Kərbəlaya** gedənlərin qadası*
*Düşsün bu ac, yolsuzların gözünə,*
*Təməddünün uyduq yalan sözünə* [10, 4].

Bu nümunə bizə deməyə əsas verir ki, şairin dünyagörüşünə görə ziyarətgahlara gedən insanlar xüsusi olaraq qiymətləndirilir.

**Qaraçəmən cadası** – Xronimdir. Şəhriyarın uşaqlıq dövründə yaşadığı bölgədə yerləşən bir ərazidir və onun üçün xüsusi mənəvi əhəmiyyət daşıyır. Qaraçəmən şeirdə təbiətlə bağlılığı, sadə kənd həyatını və Şəhriyarın uşaqlıq xatirələrinin əks olunduğu məkanlardan biri kimi görünür.

**Qıpçaq** – dağətəyi kəndlərdən biridir. Qıpçaqlar Orta Asiyada, Qafqazda və Şərqi Avropada geniş yayılan bir xalq olmuşdur. Şəhriyarın bu yer adını poemasında çəkməsi həm coğrafi, həm də mədəni bir əhəmiyyət daşıyır. Bu, Şəhriyarın doğulub-böyüdüyü Azərbaycanın qədim türk köklərinə bağlılığını göstərir.

*Əmoğluynan gedən gecə **Qıpçağa,***
*Ay ki çıxdı, atlar gəldi oynağa,*
*Dırmaşırdıq, dağdan aşırdıq dağa,*
*Məş Məmixan göy atını oynatdı,*
*Tüfəngini aşırdı şaqqıldatdı* [10, 11].

**Təbriz** – *XIII əsrin əvvəllərində Təbrizdə olmuş Yaqut əl-Həməvi "Təbriz" sözünü "Tibriz" kimi yazaraq, şəhəri "Azərbaycanın ən məşhur, gözəl, abad, ətrafı əhəng və kərpiclə bərkidilmiş möhkəm hasarı olan" bir şəhər adlandırmışdır. Təbriz*

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 237-242*

*haqqında ilk məlumata məşhur ərəb tarixçisi əl-Bəlazurinin (IX əsr) əsərində təsadüf edilir* [12, 4]. Təbriz, Şəhriyarın doğulub böyüdüyü şəhərdir və onun həyatında dərin iz buraxmışdır. Şəhriyar poemada Təbrizi bir mədəniyyət və elm mərkəzi kimi təqdim edir. Təbriz, həmçinin, onun üçün doğma Azərbaycan torpaqlarının bir simvolu olaraq dərin mənəvi əhəmiyyət daşıyır.

*Xəccəsultan əmmə gedib **Təbrizə,***
*Amma nə **Təbriz** ki, gələmmir bizə,*
*Balam, durun, qoyaq gedək əmmizə,*
*Ağa öldü, tifağımız dağıldı,*
*Qoyun olan yad gedibinə sağıldı* [10, 11].

**Tehran** – Müasir İran İslam Respublikasının paytaxtı olan Tehran Şəhriyarın həyatında mühüm yer tutan şəhərlərdən biridir, çünki o, burada uzun illər yaşamış və təhsil almışdır. Tehran, Şəhriyarın vətənindən uzaqda olduğu bir dövrdə yaşadığı şəhərdir və şeirdə bu şəhərin adı keçərkən müəllifin doğma kəndinə, təbiətə və keçmişinə duyduğu həsrət ön plana çıxır.

*...Mən hardasam, **Tehranda**, ya Kaşanda,*
*Uzaqlardan gözüm seçər onları,*
*Xəyal gəlib, aşıb keçər onları* [10, 14].

**Nəticə**

Sonda bu nəticəyə gəlirik ki, "Heydərbabaya salam" poemasında adları keçən bu yer adları, əsasən, şairin doğulub-böyüdüyü yerlərə olan bağlılığını, uşaqlıq xatirələrini, həmçinin Azərbaycan təbiətinə və tarixinə olan sevgisini əks etdirir. Poemada toponimlərin müxtəlif növlərinə rast gəlmək olar. Bu toponimlər Şəhriyarın əsərlərində milli kimlik, mədəniyyət və doğma torpağa olan sevgisini göstərən əsas məqamları təşkil edir. Yer adları şairin uşaqlıq illərindən, doğulduğu və böyüdüyü yerlərdən təsirlənərək yazdığı poemanın ruhunu təşkil edir. Onların vasitəsilə Şəhriyar doğma torpağına olan dərin məhəbbətini və təbiətə vurğunluğunu ifadə edir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Adilov M., Paşayev A. Azərbaycan onomastikası. Bakı: ADU, 1987. 86 s.
2. Albayraq R. Türklərin İranı. Bakı: Mütərcim, 2016. 225 s.
3. Cəfəroğlu Ə. Şəhriyar Təbrizi. Türk Kültür Araşdırmaları Mərkəzi. Ankara: 1964, № 1. s.125-132
4. Həbibbəyli İ. Ustad Məhəmmədhüseyn Şəhriyar. Bakı: Elm, 1999. 140 s.
5. İsmayılova E. Şəhriyarın "Heydərbabaya salam" poemasında Novruz adət-ənənələri. 525ci qəzet . 2018, 28 fevral , s.4
6. Quliyev E. Seyid Məhəmmədhüseyn Şəhriyar. Bakı: Mütərcim, 1999. 180 s.
7. Quliyev E. Şəhriyar poeziyası və milli təkamül. Bakı: Elm, 2004. 279 s.
8. Qurbanov A. Azərbaycan onomologiyasının əsasları. I cild. Bakı, 2019. 436 s.

9. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı, 2019. 408 s.
10. Şəhriyar M. Seçilmiş əsərləri. Bakı: Kitab klub, 2016. 478 s.
11. Şəhriyar M. Seçilmiş əsərləri. Bakı: Elm, 2000. 492 s.
12. Şərifov Ş. Orta əsr ərəb mənbələrində Təbriz şəhəri. Bakı, 2019
13. Şükürova E. Söz sərrafı Şəhriyar. Bakı: Avrasiya-Press, 2010, 310 s.
14. https://tehsil.com.az/heyder-baba-dagi-haqqinda-melumat/

**ALASGAROVA SEVINJ**

## LEXICAL-SEMANTIC FEATURES OF TOPONYMS IN M.SHAHRIAR'S POEM "Greetings to Heydarbaba"

**Summary**

The poem "Greetings to Heydarbaba", one of the most famous works of Mahammadhuseyn Shahriyar, occupies a special place in Azerbaijani literature. The poem is written in a simple, charming, beautiful, noble Azerbaijani language as a whole, and Shahriyar himself admits that it is very difficult to translate it into Persian. Toponyms of various origins are used in this poem. The toponyms used by Shahriyar serve to glorify and describe many interesting aspects of socio-economic life, not only from a linguistic point of view, but also from a socio-economic point of view. By specifically mentioning economically and politically important territories in his poem, the poet sometimes conveys to his reader the place where the events took place with the help of microtoponyms. In the poem "Greetings to Heydar Baba", the artist, using separate real and unreal (fictional) artistic toponyms, creates an idea of the geographical space where the artistic process takes place.

The article examines the toponyms in the poem "Greetings to Heydar Baba" from a linguistic, etymological, and stylistic perspective, and reveals their rich informative, expressive, and stylistic functions and poetic possibilities. Thus, the toponyms used in the poem by Mahammad Huseyn Shahriyar, whether they are real, that is, products of artistic fantasy, or not, and which express a specific geographical object, administrative-territorial unit that existed historically or currently exists, are also widespread.

**Keywords:** toponyms, linguistic features, oronyms, oikonyms, native land.

## ЛЕКСИКО-СЕМАНТИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА ТОПОНИМОВ В ПОЭМЕ М.ШАХРИЯРА «ЗДРАВСТВУЙТЕ ХАЙДАРАБАЙЮ»

**Краткое содержание**

Поэма «Привет Гейдарбабе», одно из самых известных произведений Мохаммадгусейна Шахрияра, занимает особое место в азербайджанской

литературе. Стихотворение в целом написано на простом, изящном, красивом, благородном азербайджанском языке, и сам Шахрияр признается, что перевести его на персидский язык очень сложно. В стихотворении использованы топонимы различного происхождения. Топонимы, используемые Шахрияром, служат не только с лингвистической точки зрения, но и для восхваления и описания многих интересных сторон социально-экономической жизни. Упоминая в своем стихотворении экономически и политически важные районы, поэт иногда с помощью микротопонимов передает читателю место, где происходили события. В стихотворении «Здравствуйте Гейдарбабе» художник, используя отдельные реальные и нереальные (вымышленные) художественные топонимы, создает впечатление о географическом пространстве, где происходит художественный процесс.

В статье топонимы в стихотворении «Здравствуй Гейдарбабе» исследуются лингвистически, этимологически и стилистически, раскрываются их богатые информативные, экспрессивно-стилистические функции и поэтические возможности. Таким образом, это не продукт реальной, т. е. художественной фантазии, развитой в упомянутом стихотворении Мухаммадгусейна Шахрияра, а конкретный географический объект, исторически существовавший или существующий в настоящее время. Топонимы, обозначающие единицу зи, также широко распространены.

**Ключевые слова:** топонимы, языковые особенности, оронимы, ойконимы, родная земля.

**Redaksiyaya daxil olma tarixi: 11.10.2024**
**Çapa qəbul olunma tarixi: 24.10.2024**
**Rəyçi: Fil. üzrə fəlsəfə doktoru, dosent, Təhminə İsmayılova tərəfindən çapa tövsiyə olunmuşdur**